

Qardabani rayonundaki Kosalı orta məktəbində Qardabani Rayon İcra Hakimiyyətinin və "Borçalı" İctimai Cəmiyyətinin təşkilatçılığı ilə Hacı Haley Məsimovun 80 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.

Tədbirdə Gürcüstanın müxtəlif bölgələrindən gələn qonaqlar, orada fəaliyyət göstərən qurumların nümayəndələri, Bakıdan gələn qonaqlar, alimlər, Gürcüstanın hökumətinin nümayəndələri və digər şəxsləri ştirak ediblər.

Tədbiri Qardabani rayon Kosalı orta məktəbinin direktoru Xançoban Hacımahmudov açaraq qonaqları salamlayıb və Hacı Haley Məsimovun gördüyü işlərindən söz açıb. O qeyd edib ki, Kosalı ortaməktəbinin bugün uğur lafəaliyyət göstərməsində birçoxları kimi Hacı Haley Məsimovun da böyük əməyi olub. Beləki, çətin vaxtlarda, yəni keçid dövründə 1990-1992 illərdə 120 nəfərlik pedaqoqların əmək haqqını məh zHacı Haley ödəyib.1992 ildə Azərbaycan-Ermənistan müharibəsinin qızğın çağında Respublikanın Qərb bölgəsində - Qazax rayonunda olub, Azərbaycanlı hərbçilərə yaxından köməklik göstərib.Bundan başqa, kəndlarası yolların və kənd qəbristanlığının abadlaşdırılması kimi xeyriyyə işlərini həyata keçirib.

"Borçalı" Cəmiyyətinin sədri ZəlimxanMəmmədli, Qafqaz Müsəlmanları Rühani İdarəsinin Gürcüstan nümayəndəliyinin rəhbəri Məşədi Əli Əliyev və başqaları çıxış edərək xeyriyyəçi Hacı Haleyin gördüyü xeyriyyə işlərinə görə xüsusi hədiyyələr və diplomlarla təltif ediblər.

Hacı Haley Məsimov məclisin ərsəyə gəlməsindəköməyi olmuş hərkəsə öz təşəkkürünü bildirib.Sonda Borçalı Aşıqları ilə geniş konsert proqramı ilə çıxış ediblər.